

# Türk dünyasının qapısı:

## Naxçıvandan başlayan birlik yolumuz

**Tarix bəzən xalqların iradəsini, milli ruhunu və torpağa bağlılığını sınayır. XX əsrin əvvəllərində Azərbaycan xalqı daha bir tarixi sınaqla üz-üzə qaldı. 1920-ci ildə Azərbaycan müstəqilliyini itirdikdən sonra bölgənin siyasi xəritəsi yenidən cızıldı.**

Sovet imperiyasının dağıdıcı siyasəti, ərazi itkiləri və milli kimliyin sıxışdırılması fonunda Zəngəzurun Ermənistana verilməsi Naxçıvan üçün böyük təhlükə yaratdı. Zəngəzurla kifayətlənməyən erməni millətçiləri saxtakarlıqlarını bir az da irəli apararaq Naxçıvanı da Ermənistana birləşdirmək niyyətində idilər. Bu plan, əslində Cənubi Qafqazın etnik və siyasi mənzərəsini dəyişmək üçün atılan məkrli bir addım idi. Lakin onların bu xəyalları gerçəkləşmədi. Bu tarixi dönəmdə Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu alması uğrunda gedən mübarizədə qardaş Türkiyənin siyasi və diplomatik dəstəyi mühüm rol oynadı. 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsi və həmin il oktyabrın 13-də bağlanan Qars müqaviləsi Naxçıvanın taleyini həll etdi. Bu müqavilələr Azərbaycanın milli maraqlarını müdafiə edən, Naxçıvanın siyasi xəritədə öz statusunu qoruyub saxlamasına zəmanət verən beynəlxalq hüquqi sənəd idi.

**(davamı 7-ci səhifədə)**




(əvvəli 1-ci səhifədə)

Naxçıvanın muxtariyyət statusu Ermənistanın iddialarına qarşı ən güclü siyasi cavab oldu. 1922-ci ilin dekabrında keçirilən I Zaqafqaziya Sovetlər Qurultayı Naxçıvan məsələsi ilə bağlı xüsusi qərar qəbul etdi. Bu qərarla Naxçıvanın Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olduğu rəsmən təsdiqləndi. Azərbaycan Mərkəzi İnqilab Komitəsi 1923-cü il dekabrın 5-də daha bir tarixi qərar verərək Naxçıvanın muxtar diyar statusundan Azərbaycan SSR-in tərkibində muxtar respublika səviyyəsinə qaldırılması təşəbbüsünü irəli sürdü. Qərar 1924-cü il yanvarın 8-də Zaqafqaziya Mərkəzi İnqilab Komitəsi tərəfindən təsdiqləndi və Naxçıvanın hüquqi statusu daha da möhkəmləndi. Nəhayət, 1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Respublikası yaradıldı. Bu hadisə xalqımızın milli iradəsinin, tarixə sadiqliyinin, torpağına sonsuz sevgisinin qələbəsi idi. Naxçıvanın qədim Azərbaycan torpağı statusu təsdiqləndi və Ermənistanın saxta iddialarına qarşı dəmir sədd çəkildi. Erməni yalanları, tarixi saxtakarlıqları bir daha ifşa olundu. Çünki Naxçıvanın minilliklərə söykənən tarixi mədəni və etnik bağlılıqlarla sübuta yetirildi.

Muxtariyyət statusu qazandığı gündən bu torpaq dəfələrlə imperialist maraqların, erməni iddialarının hədəfinə çevrilsə də xalqımızın əzmi və qətiyyəti sayəsində öz varlığını qoruyub saxlamışdır. 1924-cü ildə yaradılan Naxçıvan Muxtar Respublikası cəmi 5.988 kvadratkilometr sahəni əhatə edirdi. Lakin sovet rejimi 1921-ci il Moskva və Qars müqavilələrinin müddəalarını kobud şəkildə pozaraq 1929-1930-cu illərdə Naxçıvan ərazisini daha da kiçiltmək üçün məqsədyönlü siyasət həyata keçirdi. Məqsəd Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanı zəiflətmək, gələcəkdə erməni iddialarının həyata keçirilməsi üçün zəmin yaratmaq idi. Sovet hakimiyyəti illərində Naxçıvanda müəyyən iqtisadi və sosial inkişaf baş verdi. Lakin bu inkişafın ən parlaq dövrü ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir.

1970-1980-ci illərdə Naxçıvanın sosial-iqtisadi, siyasi və mədəni həyatında əsl dirçəliş başladı. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan keçmiş SSRİ-də iqtisadi göstəricilərinə görə ön sıralara yüksəldi. Bu inkişafın ən mühüm dayaqlarından biri də Naxçıvanda əldə edilən uğurlar idi. Sənaye müəssisələri açıldı, kənd təsərrüfatı yeni texnologiyalarla gücləndirildi, təhsil və mədəniyyət sahələri inkişaf etdi. Bu dövrdə Naxçıvan MSSR-in yeni Konstitusiyası qəbul edildi. Bu hüquqi sənəd muxtar respublikanın SSRİ tərkibindəki statusunu bir daha təsdiqlədi. Bundan sonra erməni millətçilərinin Naxçıvandan yeni ərazilər qoparmaq planları iflasa uğradı.

Azərbaycanın siyasi tarixində ən çətin dövrlərdən biri 1990-cı illər idi. Sovet imperiyası çöküş ərəfəsində idi, erməni separatizmi güclənirdi, Azərbaycan isə xaos və qeyri-müəyyənlik girdabına düşmüşdü. Məhz belə bir məqamda ulu öndər Heydər Əliyevin Naxçıvana qayıdışı xalqımız üçün ümid işığı oldu. 1990-cı ilin iyul ayında Naxçıvana gələn Heydər Əliyev burada siyasi fəaliyyətini davam etdirdi və Azərbaycan xalqının milli mübarizəsini daha sistemli hala gətirdi. Ulu öndərin M.Qorbaçovun ədalətsiz siyasətinə etiraz olaraq bütün vəzifələrindən istefa verməsi və buna baxmayaraq, mübarizədən əl çəkməməsi Heydər Əliyevin xalqına olan sadiqliyinin bariz göstəricisi idi. Xüsusilə 1990-cı ilin Qanlı Yanvar hadisələrindən sonra ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımızın haqq səsini dünyaya çatdırdı.

Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə keçirilən seçkilərdə iki seçki dairəsindən Heydər Əliyevin namizədliyi irəli sürüldü. 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycanın gələcəyini müəyyən edən fundamental dəyişikliklərə zəmin yaratdı. İlk olaraq, Azərbaycanın üçrəngli bayrağı rəsmi dövlət rəmzi kimi təsdiqləndi. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının adından sovet və sosialist sözləri çıxarıldı. Bir neçə ay sonra Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Ali Məclisi SSRİ-nin saxlanılması ilə bağlı keçirilən ümumittifaq referendumunu boykot etdi. Bu addım imperiyanın basqısına qarşı əyilməz iradənin nümayişi kimi tarixə düşdü. Naxçıvan Ali Məclisi, hələ Sovet hakimiyyətinin mövcud olduğu bir vaxtda 1990-cı ilin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verən ilk rəsmi orqan oldu. Bu qərarda SSRİ-nin və Azərbaycanın o zamankı siyasi rəhbərliyinin faciəyə görə birbaşa məsuliyyət daşıdığı açıq şəkildə vurğulandı. Heydər Əliyevin uzaqgörən siyasəti və qətiyyəti ilə Naxçıvandan başlanan istiqlal mücadiləsi bütün ölkəyə yayıldı və nəhayət, 1991-ci ildə Azərbaycanın müstəqilliyi bərpa edildi. 1991-ci il sentyabrın 3-də xalqın təkidli tələbi ilə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Həmin dövrdə Ermənistanın işğalçılıq siyasəti geniş vüsət almışdı. Naxçıvan isə iqtisadi blokada, sərt geosiyasi təzyiqlər və hərbi təhlükələr altında idi. Bu torpağın müdafiəsi üçün nə Bakıdan yardım gəlir, nə də beynəlxalq aləmdən səs yüksəlirdi. Ulu öndər mərkəzi hakimiyyətin laqeyd münasibətinə, hərbi dəstəyin olmamasına baxmayaraq, daxili siyasi çəkişmələrə və iqtisadi çətinliklərə sinə gərdi. Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar düşmənin qarşısında bir sipər kimi dayandılar. Ulu öndərin siyasi manevrləri yalnız müdafiə ilə məhdudlaşmadı. Keçmiş sovet ordusu Naxçıvanı tərk edərkən ən böyük təhlükə onların silah və texnikası idi. 1992-ci ildə Naxçıvandakı 75-ci diviziyanın silah-sursatı Azərbaycan Milli Ordusuna təhvil verildi. Silahların tam təhvil verilməsindən cəmi 3 gün sonra - həmin il avqustun 18-də keçmiş sovet ordusunun son dəstəsi də Naxçıvanı tərk etdi. Heydər Əliyevin iradəsi ilə Naxçıvan yalnız daxili təhlükələrdən deyil, xarici təhlükələrdən də tam azad oldu. 41-ci sərhəd dəstəsinin hərbi və texniki avadanlıqları da Azərbaycanın nəzarətinə verildi. 1992-ci ilin sentyabrından etibarən Naxçıvanın sərhədlərini Azərbaycan Sərhəd Qoşunları qorumağa başladı. Heydər Əliyevin Naxçıvandakı fəaliyyəti bir daha göstərdi ki, liderin iradəsi xalqın taleyini dəyişə bilər.








Ümummilli lider Heydər Əliyevin diplomatik və strateji uzaqgörənliyi nəticəsində qonşu ölkələrlə, xüsusilə Türkiyə və İranla iqtisadi əlaqələri genişləndi. Bu siyasətin ən parlaq simvolu isə "Ümid" körpüsü oldu. 1992-ci il mayın 28-də açılan körpü iqtisadiyyatın canlanmasına, ticarətin bərpasına və xalqın ümidlərinin dirçəlməsinə səbəb oldu. Heydər Əliyevin Naxçıvanda qazandığı uğurlar təkcə xalqın deyil, Bakıdakı siyasi dairələrin də diqqətini çəkirdi. Bu səbəbdən, ulu öndəri siyasi səhnədən uzaqlaşdırmağa cəhdlər edildi. Xalq Heydər Əliyevin ətrafında birləşdi. Azərbaycanın hər yerindən ziyalılar, ağsaqqallar, sadə vətəndaşlar Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışını tələb edirdilər. 1992-ci ilin noyabr ayında Naxçıvanda təsis olunan Yeni Azərbaycan Partiyası (YAP) xalqın iradəsinin siyasi manifesti, Heydər Əliyevin milli qurtuluş ideologiyasının davamı oldu. 1993-cü ilin iyun ayında Azərbaycanın gələcəyi üçün ən önəmli addım atıldı. Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. Bu qayıdış Azərbaycanın qurtuluşu idi. Ümummilli liderin hakimiyyətə gəlişi ilə ölkədə sabitlik bərqərar oldu, dövlətçiliyin bünövrəsi möhkəmləndi və müstəqilliyin əbədiliyi təmin edildi. Heydər Əliyev sübut etdi ki, böhranlı dövrlərdə liderlik sadəcə vəzifə tutmaq deyil, bir millətin talе yükünü çiyinlərində daşımaqdır.

Naxçıvan bu gün təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının inkişaf mərkəzlərindən birinə çevrilib. Prezident İlham Əliyevin imzaladığı Dövlət proqramları, ayrılan maliyyə vəsaitləri və həyata keçirilən irimiqyaslı layihələr sayəsində muxtar respublikanın ÜDM-də payı əhəmiyyətli dərəcədə artıb. Naxçıvanın strateji əhəmiyyətini yalnız iqtisadi göstəricilərlə ölçmək olmaz. 44 günlük Vətən müharibəsi göstərdi ki, bu torpaq həm də qəhrəman övladları ilə Azərbaycanın qürur yeridir. Naxçıvanlı hərbçilər Şuşaya qədər döyüş yolu keçdilər, şəhid oldular, Azərbaycanın şərəfini ucaltdılar. Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyəti Prezident İlham Əliyevin ordu quruculuğuna verdiyi önəmin nəticəsidir. Heydər Əliyev adına Hərbi Liseyin yaradılması, müasir hərbi infrastrukturun qurulması Naxçıvanın müdafiə potensialını artırdı.

Naxçıvan Azərbaycanın, həm də Türk dünyasının qapısıdır. 2009-cu il oktyabrın 3-də burada keçirilən Türkdilli Dövlətlərin Dövlət Başçılarının IX Zirvə Toplantısı zamanı imzalanan "Naxçıvan Sazişi" ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası rəsmi olaraq yaradıldı. Gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə Naxçıvanın strateji önəmi daha da artacaq. Bu dəhliz Türkiyəyə, Mərkəzi Asiyaya və Türk dünyasının geniş coğrafiyasına bağlayan yol kimi, ölkəmizin geosiyasi və iqtisadi gücünü daha da möhkəmləndirəcək. Dəhlizin açılması ilə Naxçıvanın iqtisadi təcridi tamamilə aradan qalxacaq, Azərbaycanın tranzit gəlirləri artacaq, logistika, sənaye və kənd təsərrüfatı sahələrində yeni inkişaf mərhələsi başlayacaq. Naxçıvan bütün Avrasiya məkanının mühüm ticarət qovşağına çevriləcək.

Muxtar Respublikada elmin və təhsilin inkişafına hər zaman xüsusi diqqət göstərilir, təhsil sisteminin maddi-texniki bazasının gücləndirilməsi və modernləşdirilməsi istiqamətində ardıcıl addımlar atılır. Hazırda Naxçıvanda 3 ali təhsil müəssisəsi - Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti və Naxçıvan Müəllimlər İnstitutu, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Heydər Əliyev adına Hərbi Lisey, 200-dən çox ümumtəhsil məktəbi, eləcə də orta ixtisas və peşə məktəbləri fəaliyyət göstərir. Muxtar respublikanın alim və mütəxəssisləri qədim diyarın tarixi, ədəbi-mədəni mühiti, memarlıq nümunələri, iqtisadiyyatı, təbii ehtiyatları və s. ilə bağlı əsaslı tədqiqatlar aparır, mühüm elmi nəticələr əldə edirlər. Xatırladaq ki, ötən il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olmuşdur. Prezident İlham Əliyev 2023-cü il dekabrın 30-da "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda qeyd olunmuşdur ki, Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır: "Naxçıvan şəhəri Azərbaycan Atabəylər - Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**